**Xalq qəzeti**. - 2020.- 15 sentyabr. - № 186. - S. 4.

# Azərbaycan–Türkiyə qardaşlığının Bakı zəfəri

## 1918-ci il sentyabrın 15-də Bakının düşmənlərdən azad edilməsi milli dövlətçiliyin bərpası yönündə önəmli addım idi

**Mehman Süleymanov,**
Silahlı Qüvvələrin Hərbi Akademiyasının professoru, istefada olan polkovnik,
tarix elmləri doktoru

**Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsi və Nuru paşanın rəhbərliyi altında Gəncədən Bakıya gəlməsi, bir neçə şəhərin azad edilməsi və sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsi tarixi hadisə idi. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, şəhidlərin əziz xatirəsini daim öz qəlbində yaşadacaqdır.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Azərbaycanın müstəqilliyi üçün canlarını fəda edən bütün şəhidlərimizi ehtiramla anırıq, onlara Allahdan rəhmət və ruhlarının şad olmasını diləyirəm. Onlar fədakarlıqları və cəsarətləri ilə özlərindən sonra nəsildən-nəslə qürurla xatırlanacaq şanlı bir dastan yazaraq, Türkiyə və Azərbaycanın əbədi qardaşlığının da rəmzi oldular.**

**Rəcəb Tayyib Ərdoğan**
**Türkiyə Respublikasının Prezidenti**

Adı çoxminillik dövlətçilik tariximizə 1918-ci ilin 28 mayında şərəflə yazılmış Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində xalqımız çox ciddi hərbi-siyasi problemlərlə qarşılaş-mışdı. Son bir əsrdə Rusiya imperiyasının müstəmləkəsinə çevrilmiş Şimali Azərbaycanın siyasi, iqtisadi, mədəni mərkəzi kimi formalaşmış Bakı şəhəri çarizmin süqutundan sonrakı ilk dövrdə bolşevik-daşnak qüvvələrinin nəzarəti altında idi. Bu qüvvələrin başında duranlar yeni şəraitdə Bakıda milli hərəkatın genişlənməsi ilə razılaşmayaraq öz məqsədlərinə nail olmaq üçün 1918-ci ilin martında Bakıda yerli əhaliyə qarşı amansız soyqırımı həyata keçirmişdilər.

Müstəqilliyin elan edilməsi ərəfəsində Lənkəran bölgəsi əvvəlcə bolşevik, sonra isə denikinçi qüvvələrin nəzarəti altına keçmişdi. Onlar da Azərbaycan xalqının bu bölgəyə olan sahiblik haqqını tanımaq istəmirdilər. Nəhayət, Qarabağın dağlıq hissəsi də erməni-daşnak qüvvələrinin nəzarəti altına düşmüş-dü. Dünya müharibəsinə cəlb edilmiş türk-müsəlman əsgər və zabitlərdən ibarət olan, təşkilinə yenicə başla-nan və milli hərbi qüvvələri özündə birləşdirən Müsəlman korpusunun isə elə bir gücü yox idi. Bu korpus Azərbaycan xalqına düşmən olan qüvvələrə müqavimət göstərmək və milli maraqları müdafiə etməyə qadir deyildi.

Belə bir vəziyyətdə müstəqilliyinin ilk günlərini yaşayan Azərbaycana hərbi yardım göstərmək üçün Osmanlı Türkiyəsi türk hərbi qüvvələrini ölkəmizə göndərdi. Tarixi zərurətdən bu birləşmə ilə Azərbaycanın milli hərbi qüvvələri vahid strukturda birləşdirilərək Qaf-qaz İslam Ordusu yaradıldı. Osmanlı Türkiyəsinin o zaman hərbi naziri olan Ənvər paşanın kiçik qardaşı Nuru paşa bu ordunun komandanı, Azərbaycanın görkəmli hərbçisi, general-leytenant Əliağa Şıxlinski isə onun müavini təyin edildi.

Qeyd etmək lazımdır ki, o zaman hələ gənc yaşlarında olma-sına baxmayaraq Nuru paşa kifayət qədər cəsarətli bir döyüşçü idi və məsuliyyətli vəzifələrin icrasını öz üzərinə götürməkdən heç za-man çəkinmirdi. Birinci Dünya müharibəsi ərəfəsində Nuru paşanın qardaşı Ənvər paşa Türkiyənin hərbi naziri idi. Özü isə sultan qvardiya-sında xidmət edirdi. Yəni qan-qada görmədən xidmət etmək üçün əlində böyük imkanlar var idi. Amma hələ Birinci Dünya müharibəsi ərəfəsində Afrikanın şimalında Osmanlı nəzarəti altında olan ərazilərin itirilməsi təhlükəsi yarananda Nuru paşa sultan-dan xahiş etmişdi ki, onun bu bölgəyə yollanmasına və orada Türkiyənin maraqlarının qorunmasında iştirak etməsinə icazə versin. Bunun nəticəsi idi ki, Nuru paşa 1911-1912-ci illərdə və sonra Birinci Dünya müharibəsi illərində Trablusqərb cəbhəsində ağır döyüşlərə qatılmışdı. O bu döyüşlərdə Qafqaz İslam Ordusuna sonrakı uğur-lu komandanlıq üçün dəyərli hərbi təcrübə əldə etmişdi.

Nuru paşanın Trablusqərb cəbhəsində göstərdiyi şücaətdən Azərbaycanın milli mücadilə fəallarının da yetərli məlumatı var idi. Paşanın Qafqaz İslam Ordusuna komandan təyin edilməsini hərbi yardım alınması xahişi ilə İstanbula ezam edilmiş nümayəndə heyətinin rəhbəri Nağı bəy Şeyxzamanlı təklif etmişdi. Nuru paşa gerçək "paşa" (general) rütbəsinə malik olmamışdı. Qafqaz İslam Ordusunun komandanı təyin ediləndə o, yarbay rütbəsində idi. Lakin ölkə xaricində çox böyük sayda hərbi qüvvələrə və daha yüksək rütbəli zabitlərə

komandanlıq etməli olduğu üçün ona Osmanlı sultanı-nın qərarı ilə Azərbaycanda olduğu müddətdə, Qafqaz İslam Ordusunun komandanı olması ilə əlaqədar fəxri feriq (general-leytenant) rütbəsi verilmişdi.

Azərbaycanda olduğu zaman Nuru paşa bu rütbəni daşımalı və səlahiyyətlərinə malik olmalı idi. Azərbaycanda xidməti vəzifə icra edən digər türk zabitlərinə də müvəqqəti olaraq bir üst rütbə daşımaq səlahiyyəti verilmişdi. Nuru paşa Türkiyəyə geri döndükdən sonra feriq rütbəsini təhvil vermiş-di və bir müddətdən sonra yarbay rütbəsində təqaüdə çıxmışdı. Lakin Azərbaycanda göstərdiyi çox dəyərli xidmətlərinə görə Nuru paşaya həm Azərbaycanda, həm də Türkiyədə "paşa"--deyə müraciət etmişdilər. Elə bu gün də Nuru paşa həm Azər-baycanda, həm də Türkiyədə paşa kimi xatırlanır. Onun şərəfli adı elə bu ad altında ortaq tariximizin səhifələrində əbədilik həkk olunmuş-dur.

Amma Nuru paşa Azərbaycana yetişəndən sonra burada vəziyyətin kifayət qədər mürəkkəb olduğunu gördü, Azərbaycanın istiqlaliyyətinin və yerli xalqın mövcudluğunun çox ciddi təhlükə ilə qarşılaşdığının şahidi oldu. Çünki Azərbaycanın müstəqilliyinin elan edilməsindən dərhal sonra S.Şaumyanın rəhbərliyi altında hakimiyyəti ələ keçirmiş Bakı Sovetinin bolşevik-daşnak qüvvələri artıq Şamaxı-Göyçay yolu boyun-ca Qaraməryəmə qədər irəliləmiş, dəmir yolu boyunca isə az qala Ucara çatmışdı. Bolşevik-daşnak qüvvələr Gəncəni ələ keçirməklə Azərbaycanın müstəqilliyinə son qoymaq, əhalini isə qılıncdan keçirmək niyyətində idi.

Azərbaycanın istiqlaliyyətinin müdafiəsi yolunda Qafqaz İslam Ordusu qüvvələri ilk ciddi sınaqla Qaraməryəm ətrafında qarşılaşma-lı olmuşdu. 1918-ci il iyun ayının əvvəllərində bu məntəqədə artıq Bakı Sovetinin bolşevik-daşnak qüvvələrinin çox güclü bir qruplaşma-sı yaradılmışdı. İyun ayının 17-də bu məntəqədə mövqe tutmuş 10-cu türk piyada alayının komandiri Osman bəy Osmanlı hərbi qüvvələrin bütünlüklə Azərbaycana yetişməsini gözləmədən və Qafqaz İslam Ordusu komandanlığı ilə razılaşdırmadan bolşevik-daşnak qruplaşması üzərinə hücuma keçməyi qərara almışdı. Lakin bu hücum uğur-suzluğa düçar olmuşdu. Türkiyə və Azərbaycan milli qüvvələri çox böyük sayda itkilər verərək geri çəkilmişdi. Bu barədə məlumat alan kimi Nuru paşa dərhal Əliağa Şıxlinski ilə birlikdə Qaraməryəm ətrafına yola düşmüşdü.

Qeyd etmək lazımdır ki, Bakıya doğru yürüş zamanı Nuru paşa üç dəfə ön cəbhəyə yollanmışdı. Hər üç səfərində də o, Əliağa Şıxlinski ilə birlikdə olmuşdu. Bu da Nuru paşa tərəfindən Əliağa Şıxlinskinin şəxsiyyətinə və hərbi təcrübəsinə olan ehtiramdan irəli gəlirdi.

Nuru paşa ilə Əliağa Şıxlinski 1918-ci il iyunun 18-də qatarla Müsüslüyə gəlmişdilər. Onlar əvvəlcə buradakı zabitlərlə görüşüb söhbət etmiş, sonra isə faytonla Göyçaya yollanmış, Qaraməryəm ətrafında baş vermiş döyüşün gedişi və nəticələri ilə yaxından tanış olmuşdular.

Eyni zamanda, yerli əhalinin nümayəndələri ilə də görüş keçiril-miş, onlara Azərbaycanın istiqlalı uğrunda mübarizə aparan birgə hərbi qüvvələrə daha yaxından kömək göstərilməsi üçün çağırış edilmişdi. Qafqaz İslam Ordusunun rəhbərləri öz hiss və həyəcanlarını onların görüşünə gələnlərlə bölüşmüş, fikir mübadiləsi aparmış, təcavüzü genişlənməkdə olan bolşevik-daşnak qoşunlarına qarşı yalnız ordu hissələrinin fəaliyyətinin kifayət etmədiyini bildirmişdilər. Xüsusi olaraq vurğulanmışdı ki, xalq kütlələri müdafiə qüvvələrini tək qoy-mamalı, hər vasitə ilə onlara yardım etməlidir.

Qaraməryəm döyüşünün ilkin nəticələrinin gələcəkdə təkrar olunaca-ğı təqdirdə aydın idi ki, Nuru paşaya həvalə edilmiş məsuliyyətli vəzifələrin icrası şübhə altında qala bilərdi. Ona görə də Qaraməryəm ətrafında növbəti döyüşün hazırlanmasına Nuru paşa çox ciddi yanaşdı, mövcud reallıqlar haqqında Türkiyənin hərbi rəhbərliyinə məlumat verməklə, əlavə bir türk diviziyasının da Azərbaycana göndərilməsi haqqında məsələ qaldırdı. Amma o da məlum idi ki, Türkiyədən əlavə qüvvələrin yetişməsi müəyyən vaxtdan sonra müm-kün ola bilərdi. Həmin qüvvələrin yetişməsinə qədər isə bolşevik-daşnak qüvvələrinin hücumunun qarşısını saxlamaq lazım idi. Bunun üçün çıxış yolu kimi Azərbaycanın daxili poten-sialının səfərbərliyə alınmasına cəhd göstərildi.

Nuru paşa Qafqaz İslam Ordu-sunun komandanı kimi Azərbaycan hökumətinə müraciət etdi, ondan kömək istədi. Azərbaycan hökuməti də bütün imkanlarını səfərbərliyə aldı, xalqın gücünü, əzmini istiqlaliyyətə qənim kəsilmiş qüvvələrə qarşı mübarizəyə istiqamətləndirdi. Bu mənada Qaraməryəm ətrafındakı döyüşlər həm də Azərbaycan hökuməti üçün müstəqilliyin qorun-ması yolunda ciddi bir sınaq nöqtəsinə çevrildi. Cəbhədə vəziyyətin düzəldilməsi üçün Azərbaycan hökuməti qısa bir vaxt ərzində respub-likanın bütün məntəqələrindən Göy-çay ətrafına milli könüllü dəstələrin göndərilməsinə nail oldu.

Osmanlı hərbi qüvvələrinin əsasını təşkil edən 5-ci Qafqaz piyada diviziyasının qərargah rəisi Rüştü bəy sonralar yazdığı xatirələrində bildirir-di ki, Azərbaycan hökuməti tərəfindən Qaraməryəm ətrafına səfərbər edilmiş milli könüllü dəstələrinin ümumi sayı hətta Azərbaycana gəlmiş türk diviziyasının şəxsi heyətinin sayından da artıq idi.

Bundan əlavə, Azərbaycan hökuməti tərəfindən məntəqələrdə ərzaq toplanması və qoşunlara çatdırılması təşkil edildi, silah və sursatın tapılması üçün bir sıra mühüm tədbirlər həyata keçiril-di. Bütün bu işlərin görülməsi, əlaqələndirilməsi və onların düşmənin məhvinə istiqamətləndirilməsi üçün Azərbaycan hökuməti ilə Qafqaz İslam Ordusu komandanlığı arasında işgüzar əlaqə yaradıldı. Buna görə də çox dəqiqliklə atılan addımlar tezliklə öz müsbət nəticələrini verdi. Növbəti döyüş də bolşevik-daşnak qoşunlarının qəfil hücumu ilə

başladı, ancaq onlar hərbi təşəbbüsü əllərində saxlaya bilmədilər. Qafqaz İslam Ordusu Qaraməryəm ətrafında tarixi bir qələbə əldə etdi.

1918-ci il iyun ayının 27-30 arasında baş verən döyüşlərdə bolşe-vik-daşnak qoşunlarına çox ağır zərbə vuruldu. Cəbhə xəttində əsaslı dönüş yaradıldı. Qaraməryəmdən başlanan bu dönüşdən sonra Bakıya doğru uğurlu yürüş başlandı. Bu uğurlu yürüşlərin nəticəsi idi ki, 1918-ci il iyul ayının sonlarında Qafqaz İslam Ordusunun qüvvələri artıq Bakı ətrafında idi.

Bakının azad edilməsi Nuru paşanın rəhbərliyi altında aparılan döyüşlərin, bütünlükdə, Qafqaz İslam Ordusu hərəkatının uğurlu və şanlı zirvəsidir. Müvəffəqiyyətlə sona çatan bu əməliyyatla Bakı şəhəri erməni-rus qoşunlarının və ingilis bölmələrinin nəzarəti altından çıxarılaraq müstəqil Azərbaycan Cümhuriyyətinın paytax-tına çevrildi. Bununla da Azərbaycanın müstəqilliyi onun başı üzərini kəsdirmiş real təhlükədən nicat tapdı.

Bakının azad edilməsi Türkiyə və Azərbaycan hərbi qardaşlığının birgə mübarizəsinin məntiqi nəticəsi idi. La-kin bu nəticə elə də asanlıqla hasil ol-madı. Çünki Bakı uğrunda mübarizəyə, əslində, dünyanın çox böyük dövlətləri və gücləri qatılmışdılar. Bir tərəfdən, Bakı Soveti ilə təmsil olunan bolşevik Rusiyası çar Rusiyasının hüdudla-rına daxil olmuş Bakını və bütün Azərbaycanı özünün gələcək ərazisi kimi görürdü və bu ərazilərə iddia irəli sürməkdə özünü haqlı sayıdı. Digər tərəfdən, Birinci Dünya müharibəsinin qaliblərindən olan Böyük Britaniya Xəzər hövzəsi ərazilərə və xüsusilə də Bakı neftinə sahib olmaq üçün açıq fəaliyyətə başlamışdı.

Britaniya 1918-ci il iyul ayının sonlarında Bakı Sovetinin istefa verməsindən sonra Bakıda hakimiyyəti ələ almış Sentrokaspi diktaturasının xahişi ilə öz qoşunlarını Bakıya göndərmişdi. İran ərazisindən dəniz yolu ilə Bakıya göndərilən həmin qüvvələrə general Denstervil rəhbərlik edirdi. Məhz bu qüvvələrin Bakıya gəlməsindən sonra şəhər ətrafındakı hərbi mövqeləri bir qədər möhkəmləndirmək və bununla Qafqaz İslam Orudusunun 1918-ci il avqust ayının 5-də Bakının azad edilməsi üçün başlanan ilk hücumunun qarşısı-nı almaq mümkün oldu.

Bundan başqa, Almaniya da Bakı neftinə sahib olmaq üçün çox ciddi cəhd göstərirdi. Bu dövlət Gürcüstan ərazisində möhkəmlənməklə Bakı ilə bağlı təcavüzkar planların icrasına daha da yaxın olmağa çalışırdı. Bakı neftinə sahib olmaq niyyətinin həyata keçirilməsi üçün Almaniya hətta Birinci Dünya müharibəsində müttəfiq olduğu Osmanlı Türkiyəsi ilə qarşı-durmaya getməkdən də çəkinmədi. Belə ki, Almaniya rəhbərliyi 1918-ci il avqust ayının 27-də bolşevik Rusiyası ilə anlaşma imzalamaqla, Osmanlı Türkiyəsinin iradəsinin əksinə olaraq, Bakı neftini bölüşdürmək haqqında razılığa gəldi.

Həmin anlaşmanın 6-cı fəslinin 14-cü maddəsinə əsasən, Almaniya öz imkanlarından istifadə etməklə Osmanlı hərbi qüvvələrinin Bakıya doğru irəliləməsini durdurmalı, bolşevik Rusiyası isə gələcəkdə sahib olacağı Bakı neftinin dörddə birini Almaniyaya güzəştə getməli idi. Bu razılaşmanın icrasına nail olmaq üçün Almaniyanın əlində kifayət qədər im-kan var idi. Belə ki, çox sayda alman zabit və general qarşılıqlı razılaşmaya əsasən, Osmanlı Türkiyəsinin Hərbi Nazirliyində, Baş Qərargahında yüksək vəzifələr tuturdu. Onlar Os-manlı ordusunun fəaliyyəti ilə bağlı qərar qəbul edilməsinə təsir etmək imkanlarına malik idilər.

Almaniya ilə sovet Rusiyası ara-sında belə bir anlaşmanın imzalanması həm Cümhuriyyət rəhbərliyinin, həm də Osmanlı hökumətinin sərt etirazı ilə qarşılaşdı. 1918-ci il sentyabr ayının əvvəllərində İstanbulda olan Məmməd Əmin Rəsulzadə Alma-niyanın bu şəhərdəki səlahiyyətli nümayəndəsi qraf Valdburqla görüşərək Azərbaycan hökuməti adından ona etiraz notası təqdim etdi. Elə həmin günlərdə Berlinə səfər edən Osmanlı baş naziri Tələt paşa da Almaniyanın Xarici İşlər Nazirliyində aparılan müzakirələrində bu ölkə ilə sovet Rusiyası arasında imzalanan anlaşmaya öz etirazını bildirdi.

Amma artıq zəifləməkdə olan Osmanlı Türkiyəsi Almaniyanın təzyiqlərinin qarşısını almaqda ciddi bir nəticəyə nail ola bilmədi. Hətta Almaniyanın hərbi naziri olan marşal Lyüdendorf 1918-ci il avqust ayının 4-də Osmanlı hərbi naziri Ənvər paşaya teleqram göndərərək Qaf-qaz İslam Ordusunun Bakıya doğru irəliləməsinin dərhal dayandırılmasını tələb etdi. O bildirdi ki, bu tələbə əməl olunmasa Osmanlı ordusu sıralarında olan alman zabitlərinin hamılıqla geri çağırılması haqqında Almaniya impe-ratoru qarşısında məsələ qaldıracaq.

Bu təzyiqlər Azərbaycana münasibətdə Ənvər paşanı öz iradəsindən döndərə bilmədi. Lakin göstərilən təzyiqlərin qarşısının alın-ması üçün o, Almaniyanın tələbləri ilə razılıq görüntüsü yaratmağa çalışdı. Bununla bağlı, Ənvər paşa 1918-ci il avqust ayının 4-də 3-cü Ordu koman-danına ünvanladığı məktubunda belə yazırdı: "Nuru paşaya çatdırılması lazımdır: əmri-qəti təkrar edirəm ki, Bakıya heç bir surətlə tərəfimizdən düçari-təərrüz olmayacaqdır. Bun-dan başqa, hansı çətə olursa-olsun və haradan gəlirsə gəlsinlər Bakıya qarşı heç kimsənin irəliləməməsi haqqında təkmili-nüfuzunuzu istemal etməlisiniz. Şorsu-Salyan-Kürdəmir-İbrahimbəyli-Zərqova-Qonaqkənd-Giləzi irəlisində nə bizim əsgərlər, nə də bizə dost çətələrdən heç kimsə bulunmayacaqdır. Bu xəttin irəlisində bu surətlə bizdən kimsə varsa geri çəkilməlidir".

Almaniyanın tələbi ilə burada adları çəkilən məntəqələrdən keçən xətt Azərbaycanın və Türkiyənin hərbi qüvvələrinin dayanmalı olduğu xətt idi. Qafqaz İslam Ordusu qüvvələri bu xətti Bakıya doğru aşmamalı və əgər aşmışdısa geri qayıtmalı idilər. Yəni Almaniya tələb edirdi ki, Bakı ətrafına yetişmiş olan Qafqaz İslam Ordusu qüvvələr geri çəkilib bu xəttin qərbində qərar tutsunlar.

Osmanlı ordusunun bütün yazış-maları alman zabitlərinin nəzarəti altında olduğundan Ənvər paşanın bu məktubu, əslində, alman zabitlərinin diqqətinin yayındırılmasına hesab-lanmışdı. Ənvər paşa eyni zamanda Azərbaycandakı Osmanlı hərbi qüvvələrinin tabe olduğu Şərq Ordular Qrupu komandanının müavini Esat paşaya gizli məktub göndərdi, ona Qafqaz İslam Orudunun Bakı üzərinə hücumunun dayandırılması üçün verilən son göstərişlərin məcburiyyət üzündən imzalandığının Nuru paşaya çatdırılmasını tapşırdı. Ənvər paşa təkidlə bildirirdi ki, Bakı üzərinə hü-cumun dayandırılması ilə bağlı imza-lana biləcək heç bir əmr icra edilməsin və Bakının qısa zaman ərzində azad edilməsi təmin edilsin. Ənvər paşanın Esat paşaya göndərdiyi məktubunun bir yerində deyilirdi: "Ehtimal ki, mən yenə buradakı duruma görə Azərbaycana və Quzey Qafqaza silah göndərilməməsini də qərargahdan yazmağa məcbur olacağam. Fəqət siz indidən Nuru paşaya istədiyi qədər silah, cəbbəxana və pul göndərərək müşkülatını həll edin".

Belə ciddi təzyiqlərin olmasına baxmayaraq, Bakı şəhərinin azad edilməsinin qarşısını almaq müm-kün olmadı. Bu tarixi vəzifənin həll edilməsi ilə bağlı 1918-ci il sentyabr ayının əvvəllərində Nuru paşa və Əliağa Şıxlinski birlikdə Bakı ətrafına gəldilər və son döyüşə hazırlıq işlərinə rəhbərliyi öz üzərinə götürdülər. Nuru paşa Bakı ətrafına yetişəndə artıq yeni bir türk diviziyası da Azərbaycana gəlmişdi. Ancaq bu diviziyadan əlavə, Azərbaycan daxilində, xüsusilə Bakı ətrafı kəndlərdə yeni səfərbərlik işləri aparıldı, böyük sayda Azərbaycan kö-nüllü dəstələri və milli hərbi qüvvələr də son hücumun uğuruna səfərbər edildi.

Bakı şəhəri üzərinə döyüş üçün bir neçə plan hazırlansa da, Nuru paşa onların heç birini qəbul etmədi. O, Əliağa Şıxlinski ilə məsləhətləşməklə öz planını hazırladı. Həmin plana əsasən çox ciddi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuş-du. O cümlədən, Azərbaycanın müstəqilliyinə yad olan qüvvələrin Bakı şəhərinin azad edilməsinə göstərə biləcəyi müdaxilələrin qarşı-sını almaq üçün Əlahiddə Azərbaycan korpusunun 1-ci Qazax və 3-cü Zaqatala piyada alayları Gürcüstanla sərhəddə, 2-ci Qarabağ alayı Ağdam ətrafında, 4-cü Ağdaş piyada alayı isə Salyanla Ələt arasında eşelonlaşdırıl-mış şəkildə yerləşdirilmişdilər.

Bakı əməliyyatının uğurunun təmin edilməsi üçün həmin alaylar Gürcüstan istiqamətindən gürcü-alman qüvvələrinin, Qarabağ istiqamətindən erməni-daşnak qüvvələrinin və Salyan istiqamətindən Lənkəranı nəzarət altında saxlayan denikinçi qüvvələrin Bakıya doğru hərəkət ehtimallarının qarşısını almalı idilər. Uğuru təmin edəcək bütün detalların nəzərə alınma-sı 1918-ci il sentyabr ayının 14-də başlanan genişmiqyaslı əməliyyatın sabahı gün, yəni sentyabrın 15-də Bakı şəhərinin yad qüvvələrdən azad edilməsi ilə nəticələndi. Nəhayət, müstəqil Azərbaycanın paytaxtı olaraq Bakı şəhəri öz azadlığına qovuşdu.

Nuru paşa Bakının azad edilməsi barədə həm Azərbaycan, həm də Türkiyə hökumətlərinə, Baş koman-dan vəkili və hərbiyyə naziri Ənvər paşaya dərhal rəsmi teleqramlar göndərdi. Azərbaycan hökumətinə göndərdiyi teleqramında Nuru paşa bildirirdi ki, Bakı şəhəri ayın 15-də saat 9 ərəfəsində düşmən qüvvələrindən azad edilmişdir, İslam Ordusu komandanı başqa bir teleqra-mında isə Azərbaycan hökumətindən xahiş edirdi ki, Bakıda ictimai asayi-şin qorunması üçün Gəncədən polis qüvvələri göndərilsin.

Bakı şəhərinin yad qüvvələrin işğalından azad edilməsi AXC və Osmanlı hökumət nümayəndələri, bütünlükdə, Azərbaycan xalqı tərəfindən çox böyük sevinc və təntənə ilə qarşılandı. Bu münasibətlə Nuru paşaya göndərdiyi teleqramında Ənvər paşa yazırdı: "Böyük Turan imperatorluğunun Xəzər kənarında zəngin bir qonaq yeri olan Bakı şəhərinin zəbti xəbərini böyük bir sevinc və mutluluqla qarşıladım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözündən öpər, şəhidlərimizə fatihələr ithaf edərim".

Azərbaycan hökumətinin rəhbəri Fətəli xan Xoyski isə öz sevincini Nuru paşaya göndərdiyi teleqra-mında belə ifadə etmişdi: "Qafqaz İslam Ordusu komandanı, səadətli Nuru paşa həzrətlərinə! Koman-danız altında bulunan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın başkəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətim, zati-həmiyyeyi-pərvəranələrinizə və dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğu-mu ərz etməklə iftixar edərim".

Bakının azad edilməsi Qafqaz İslam Ordusunun Azərbaycandakı 4 aylıq fəaliyyətinin təntənəsi idi. Nuru paşa sentyabrın 16-da bu tarixi hadisə şərəfinə hücumda iştirak edən qüvvələrin rəsmi keçidini keçirməyi qərara aldı. Bu parad qəhrəmanlığı ilə uzun bir yol keçmiş Türkiyə və Azərbaycan döyüşçülərinin əsgəri qar-daşlığının və qələbəsinin nümayişinə çevrilməli idi.

Sentyabrın 16-da səhər Qafqaz İslam Ordusunun Bakının asayişində dayanan hissələrindən başqa, qa-lan qüvvələrn paradı keçirildi. Bu rəsmi keçid Qırmızı Qışla adlanan məntəqədə təşkil olundu. Həmin dövrdən qalma sxemlərə görə təxmin etmək olar ki, Qırmızı qışla indi Bakı Dövlət Universiteti yerləşən yerdən Biləcəri yolunadək olan sahədə idi. Rəsmi keçiddə Nuru paşa, Xəlil paşa, Əli ağa Şıxlinski, Həbib bəy Səlimov, Azərbaycan parlamentinin və hökumətinin bir sıra üzvləri iştirak edirdilər.

Rəsmi keçid bitəndən sonra adları çəkilən şəxslər, qonaqlar və qoşun hissələri şəhərə daxil oldular. Generallar və bəzi şəxslər at belində idilər. Onların ardınca isə nizami şəkildə piyada, topçu, süvari və köməkçi hissələr hərəkət edirdi. Bütün xalq küçələrə çıxaraq Qafqaz İslam Ordusunun qalib qoşunlarını salamla-yırdı. Mövcud olan bəzi məlumatlara görə, qoşunlar və onların pişvazına çıxan xalq Azadlıq meydanına (indiki Sahil bağı-red.) yığışdılar. Nuru paşa buraya toplaşanları salamlayıb onların qarşısında çıxış etdi. O qeyd etdi ki, bundan sonra din, dil və irq ayrılığına yol vermədən hər bir insan bərabər olacaq, onların canları və malları

təminat altına alınacaq, bütün insanla-ra qarşı eyni qanunlar tətbiq ediləcək və duruma nəzarəti Azərbaycan hökuməti öz üzərinə götürəcək.

Bakı şəhərinin azad edilməsi Nuru paşanın həyatının ən yaddaqa-lan səhifəsi idı. O burada zabit kimi ən böyük qələbəsini əldə etmiş-di. Bu elə bir qələbə idi ki, onun sevincindən bütün Azərbaycan xalqına pay düşmüş və bu zəfər iki qardaş ölkənin qəhrəmanlıq tarixinə həkk olunmuşdu. Nuru paşa Bakının azad edilməsi ilə bir komandan kimi nəyə qadir olduğunu nümayiş etdirmiş və onun şəxsiyyətinə, eləcə də hünər və qabiliyyətinə bağlanan ümidləri, eti-madı doğrultmuşdu. Yorulmaz, coşqun fəaliyyəti, sönməz enerjisi ilə bu insan bütünlükdə türk xalqının müstəqil Azərbaycana olan bağlılığını əməli şəkildə nümayiş etdirmişdi.

Şərq Ordular Qrupunun koman-danı Xəlil paşa Nuru paşanın bu məqamda yaşadığı anları çox incəliklə duymuş və bu duyğuları cəmi bir cümlə ilə çox dəqiq təsvir edə bil-mişdi: “Nuru paşa məndən daha öncə şəhərə girərək böyük bir oteli özünə qərargah olaraq seçdi. Mən daha sonra şəhərə girdim. Cəngavər ruhlu və böyük vətənpərvər Nuru paşanın bu, bəlkə də həyatının ən gözəl günü idi”.

1918-ci ildə Bakı şəhərinin yadların işğalından azad edilməsi eyni soy-kökdən olan Azərbaycan və Türkiyə xalqlarının təbii qardaşlığının bu gün də qürurla xatırlanan və çağdaş nəsillərimiz tərəfindən layiqincə davam etdirilən qiymətli nümunəsidir. Bu münasibətlər milli-tarixi dəyərlərlə yanaşı, həm də müasir dünyanın sivil normalarına əsaslanır və bu iki ölkənin uğurlu inkişafına etibarlı bir zəmin yaradır.

2018-ci il sentyabr ayının 15-də Bakı şəhərinin yad qüvvələrdən azad edilməsinin 100 illiyi münasibətilə Azadlıq meydanında təşkil edilmiş möhtəşəm paradda çıxış edərkən Türkiyə Respublikasının Prezidenti iki ölkə arasındakı münasibətləri belə dəyərləndirirdi: “Azərbaycanın sevinci, bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir. Azərbaycan kədərlənərsə biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik. Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsi bizim üçün də eyni dərəcədə ağrılı problemdir”.

Məhz belə bir münasibətin nəticəsi idi ki, 2020-ci ilin iyulunda Tovuz istiqamətində Ermənistan Respublika-sının silahlı təcavüzünə qarşı Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan, Türkiyənin xarici işlər və müdafiə nazirləri, habelə Türkiyə ictimaiyyəti qətiyyətli bəyanatlar verdilər, Türkiyənin bütün gücü ilə Azərbaycanın yanında oldu-ğunu bildirdilər. Bunun ardınca isə Türkiyə Ordusunun və Azərbaycan Or-dusunun irimiqyaslı hərbi təlimlərinin başlanması Türkiyə rəhbərliyinin bəyanatının arxasında ciddi əməli möv-qe dayandığını bütün dünyaya nümayiş etdirdi.

2020-ci il sentyabr ayının 2-də Yunanıstan səfirinin etimadnaməsini qəbul edərkən Azərbaycan Res-publikasının Prezidenti İlham Əliyev də Azərbaycanla Türkiyə arasındakı münasibətlərin qardaş-lığa əsaslandığını bir daha bütün dünyaya bəyan etdi. Həmin qəbul zamanı Azərbaycan Prezidenti iki ölkə arasındakı münasibətləri belə xarakterizə etdi: “Türkiyə təkcə bizim dost və tərəfdaşımız yox, bizim üçün qardaş ölkədir. Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik. Biz eyni dəstəyi türk qardaşlarımızdan da görürük. Onlar Azərbaycanı bütün məsələlərdə dəstəkləyirlər və biz onları bütün məsələlərdə dəstəkləyirik. Sizə bir daha deyə bilərəm ki, Türkiyə bizim üçün təkcə dost yox, qardaş ölkədir və türklər bizim qardaşlarımız-dır. Beləliklə, bütün məsələlərdə biz onların yanında olacağıq”.

Bu qardaşlıq artıq tarixin sınağın-dan çıxmış bir münasibətdir. Çanaqqala zəfərində, Bakının azad edilməsində çiyin-çiyinə məhrumiyyətlərə qatla-şaraq şəhidliyi qəbul edən əcdadların yolunu bu gün də eyni təmənnasızlıq və fədakarlıqla davam etdirə biləcək nəsillərimiz var. Unutmayaq ki, 1918-ci ildə Bakı şəhərinin yad qüvvələrdən təmizlənməsindən heç bir ay keçməmiş Osmanlı–Azərbaycan müştərək hərbi qüvvələri Qarabağın dağlıq hissəsini də erməni-daşnak qoşunlarından bütünlüklə azad etdilər. Tarix isə daha yüksək səviyyədə təkrarlanır. Əslində, bu tarixi təkrarlamaq həm də bizim haqqımızdır. Türkiyə ilə Azərbaycanın güclənməsinə qısqanclıqla yanaşanlar gərək bu həqiqəti unutmasınlar.